Təhsil naziri Misir Mərdanov qonaqları səmimi salamlayaraq bu görüşdən məmnunluğunu ifadə edib. Dünyanın ən nüfuzlu universitetlərindən olan Corciya Dövlət Universiteti rəhbərliyinin Azərbaycana gəlişini yüksək qiymətləndirən nazir bu səfəri ölkəmizin təhsil tarixində önəmli hadisə adlandırıb. Misir Mərdanov qonaqların Azərbaycana səfərinin dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümünə təsadüf etdiyini nəzərə çatdıraraq nümayəndə heyətinə ötən müddətdə Azərbaycanın əldə etdiyi uğurlar, respublikamızın Avropa və dünya birliyinə inteqrasiyası, milli təhsil sisteminin qurulması, onun maddi-texniki bazasının möhkəmləndirilməsi yönündə atılmış addımlar və digər nailiyyətlər barədə məlumat verib. Eyni zamanda nazir ölkəmizdə ali təhsil sahəsinin inkişafı, ali məktəblərin müxtəlif beynəlxalq proqramlara qoşulması haqqında danışıb. 20 il öncə Azərbaycanda özəl ali təhsil müəssisəsinin mövcud olmadığını diqqətə çatdıran nazir bildirib ki, bu gün ölkəmizdə 15 özəl universitet fəaliyyət göstərir. Təhsil naziri, həmçinin Corciya Dövlət Universiteti rəhbərliyinin Azərbaycan Universitetinin dəvəti ilə ölkəmizə səfərini ali təhsil müəssisələrinin qarşılıqlı əməkdaşlığı baxımından yüksək dəyərləndirib.

Misir Mərdanov Corciya Dövlət Universiteti ilə Azərbaycan Dövlət Neft Akademiyası, Azərbaycan Universiteti və Odlar Yurdu Universiteti arasında əlaqələrin yaradıldığını bildirib. Təhsil naziri Azərbaycan Universiteti ilə Corciya Dövlət Universitetinin daha sıx və səmərəli əməkdaşlığından bəhs edib və ikitərəfli əlaqələrin yaradılmasında Corciya Dövlət Universitetinin professoru Bijan Fəzlullahinin böyük xidmətləri olduğunu vurğulayıb.

Daha sonra təhsil naziri Misir Mərdanov qonaqların ölkəmizə səfərinin və keçiriləcək görüşlərin Azərbaycanın ali təhsil müəssisələrinin beynəlxalq əlaqələrinin genişlənməsinə, onların inkişafına təkan verəcəyinə inamını ifadə edib. Nazir ümidvar olduğunu bildirib ki, bundan sonra da Corciya Dövlət Universiteti ilə əlaqələr daha da genişlənəcək, ölkəmizin ali məktəbləri bu universitetin təcrübəsindən bəhrələnəcəklər. Misir Mərdanov qonaqlara səfər proqramından irəli gələn məsələlərlə bağlı lazımi dəstək göstərməyə hazır olduğunu vurğulayıb və bu görüşün ölkələrarası təhsil əlaqələrinin inkişafına öz töhfəsini verəcəyini bildirib.

Səmimi qəbul və verilən məlumatlar üçün təhsil naziri Misir Mərdanova təşəkkürünü bildirən Corciya Dövlət Universitetinin prezidenti Mark Beker öncə Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümü ilə bağlı təbriklərini çatdırıb və 20 il ərzində irəliyə doğru atılmış addımları, təhsil sahəsində qazanılmış uğurları müsbət dəyərləndirib.

Corciya Dövlət Universiteti ilə Azərbaycanın 3 ali təhsil müəssisəsi arasındakı əlaqələrin əhəmiyyətini qeyd edən universitet prezidenti birgə əməkdaşlığın inkişafına və daha böyük nailiyyətlər əldə ediləcəyinə ümidvar olduğunu deyib. Qonaq Azərbaycan Universiteti ilə əməkdaşlıq çərçivəsində görülən işlərdən bəhs edib.

ABŞ-ın Corciya ştatının Atlanta şəhərində yerləşən və aparıcı tədqiqat universitetlərindən olan Corciya Dövlət Universitetinin dünya universitetləri ilə əlaqələrindən danışan Mark Beker rəhbərlik etdiyi ali məktəbdə azərbaycanlı gənclərin ali təhsilin bütün səviyyələrində təhsil alması arzusunda olduğunu bildirib.

Sonra Corciya Dövlət Universitetinin professoru Bijan Fəzlullahi universitetlərarası əlaqələrin uğurla davam etdirildiyini qeyd edib. B.Fəzlullahi Azərbaycan Universitetində birgə reallaşdırılan təhsil proqramları üzrə təhsil alan tələbələrin cari ilin dekabrında məzun olacağını deyib və bu işi əməkdaşlığın əhəmiyyətli nəticəsi kimi dəyərləndirib. Eyni zamanda qonaq qeyd olunan proqramlar üzrə qarşıya çıxan müəyyən çətinliklərdən danışıb.

Təhsil naziri Misir Mərdanov öz növbəsində Azərbaycan Universitetində birgə həyata keçirilən proqramlarla bağlı lazımi dəstək göstəriləcəyini bildirib.